**“Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında energetika sahəsində Əməkdaşlıq Sazişi”nin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il mayın 24-də Ər-Riyad şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında energetika sahəsində Əməkdaşlıq Sazişi” təsdiq edilsin.
2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Səudiyyə Ərəbistanı Krallığı Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 iyul 2023-cü il
№ 2205

*(Azərbaycan Respublikası Nazirlər Kabinetindən 17 oktyabr 2023-cü il tarixli 1-5/1-17927/2023 nömrəli dərkənarla daxil olan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin məktubuna əsasən 5 oktyabr 2023-cü il tarixində qüvvəyə minmişdir)*

**Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında energetika sahəsində**

**ƏMƏKDAŞLIQ SAZİŞİ**

Azərbaycan Respublikası Hökumətini təmsil edən Energetika Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığı Hökumətini təmsil edən Energetika Nazirliyi (bundan sonra birgə “Tərəflər” və ayrılıqda “Tərəf” adlandırılacaq) ölkələrinin milli qanunvericiliklərinə, mövcud imkanlarına uyğun olaraq və bərabərlik, qarşılıqlı fayda və hörmət prinsiplərinə əsaslanaraq energetika sahəsində iki ölkə arasında əməkdaşlığı gücləndirmək arzusu ilə

Aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Bu Sazişin məqsədi bu Sazişin 2-ci maddəsində göstərilən əməkdaşlıq sahələrinə uyğun olaraq, energetika sahəsində Tərəflər arasında əməkdaşlıq çərçivəsini yaratmaqdır.

**Maddə 2**

Tərəflər aşağıdakı sahələrdə energetika üzrə əməkdaşlığı təşviq edirlər:

1. Neft, neft-kimya, qaz, elektrik enerjisi, bərpa olunan enerji, enerji səmərəliliyi, və s.
2. İqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün Dairəvi Karbon iqtisadiyyatı və onun texnologiyaları, məsələn:
   a) Karbonun tutulması, təkrar istifadəsi, ötürülməsi və saxlanması.
   b) Aşağı Karbonlu Hidrogen.
3. Energetika sahəsində rəqəmsal transformasiya və innovasiyaların təşviqi.
4. Energetikanın bütün sektorları, təchizat zəncirləri və onun texnologiyaları ilə bağlı materialların, məhsulların və xidmətlərin lokallaşdırılması üçün Tərəflər arasında keyfiyyətli tərəfdaşlıqların inkişafı üzərində işləmək.
5. Energetika sahəsində ixtisaslaşmış şirkətlərlə əməkdaşlığın gücləndirilməsi.
6. Müxtəlif sektorlarda karbohidrogen materiallarının innovativ istifadəsini inkişaf etdirmək üçün əməkdaşlıq.
7. Universitetlər, tədqiqat mərkəzləri və digərləri ilə energetika sahəsində birgə tədqiqatların aparılması və işçi sessiyaların, panel müzakirələrinin, seminarların və çoxtərəfli konfransların təşkili.
8. Energetika sahəsi ilə bağlı təlim, təcrübə və informasiya mübadiləsi vasitəsilə insan resurslarının formalaşdırılması.
9. Tərəflərin bu Saziş çərçivəsində razılaşdıqları hər hansı digər əməkdaşlıq sahələri.

**Maddə 3**

Tərəflər bu Sazişin müddəalarının həyata keçirilməsi və Tərəflərin razılaşdırdıqları kimi energetika sahəsində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üçün zəruri təkliflər vermək üçün işçi qrup yaradırlar.

**Maddə 4**

Hər bir Tərəf bu Saziş əsasında, birgə tədqiqatın nəticələri də daxil olmaqla, mübadilə edilmiş hər hansı məlumat və ya informasiyanı, nəzərdə tutulduğu məqsədlər istisna olmaqla, istifadə etməməyi və ya çatdırmamağı və ya açıqlamamağı və bunu təmin edən Tərəfin əvvəlcədən yazılı razılığı olmadan, üçüncü tərəfə ötürməməyi öhdəsinə götürür. Bu maddənin müddəası bu Sazişin müddəti bitdikdən sonra da qüvvədə qalır.

**Maddə 5**

Hər bir Tərəf mövcud imkanlarına uyğun olaraq, bu Sazişə əsaslanan öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı maliyyə xərclərini özü qarşılayır.

**Maddə 6**

Tərəflər öz ölkələrinin milli qanunvericiliklərinə və hər iki Tərəfin qoşulduğu beynəlxalq müqavilələrə uyğun olaraq, bu Saziş çərçivəsində hər hansı fəaliyyət və ya layihə nəticəsində yaranan əqli mülkiyyət hüquqlarının qorunması üçün zəruri tədbirlər görürlər.

**Maddə 7**

Bu Sazişin təfsiri və ya həyata keçirilməsi ilə bağlı Tərəflər arasında yaranan hər hansı fikir ayrılığı onların ümumi maraqlarına xidmət edən şəkildə, məsləhətləşmələr yolu ilə, dostcasına həll edilir.

**Maddə 8**

Bu Sazişin müddəaları Tərəflərin hər hansı müqavilədən və ya ikitərəfli və ya çoxtərəfli konvensiyalardan irəli gələn hüquq və öhdəliklərinə təsir göstərmir.

**Maddə 9**

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə yazılı şəkildə düzəlişlər edilə bilər. Belə düzəlişlər bu Sazişin 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minir.

**Maddə 10**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq daxili prosedurların tamamlanmasını təsdiq edən, Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdə qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətində qüvvədə qalır və Tərəflərdən hər hansı biri digər Tərəfə diplomatik kanallar vasitəsilə bu müqaviləni ləğv etmək və ya yeniləməmək istəyi ilə bağlı yazılı məlumat vermədiyi təqdirdə, avtomatik olaraq oxşar müddətlərə yenilənir, belə bir bildiriş onun ləğvi üçün müəyyən edilən tarixdən 6 (altı) ay əvvəl verilməlidir.

Bu Saziş ləğv edildikdə və ya yenilənmədikdə, Tərəflər başqa cür razılaşmazsa, onun müddəaları, onlara uyğun yaranan proqramlar və fəaliyyətlərlə bağlı qüvvədə qalır.

Bu Saziş Ər-Riyad şəhərində 04/11/1444-cü il tarixində (Hicri təqvim), müvafiq olaraq 24/05/2023-cü il tarixində (Miladi təqvim) hər biri Azərbaycan, ərəb və ingilis dillərində, bütün mətnlər bərabər autentik olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Təfsir zamanı hər hansı fərqlilik yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük verilir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası<br>Hökuməti adından<br>Pərviz ŞAHBAZOV,<br>energetika naziri** | **Səudiyyə Ərəbistanı Krallığı<br>Hökuməti adından<br>Əbdüləziz bin Salman bin Əbdüləziz Al Səud,<br>energetika naziri** |